# ABŞ-nin Azərbaycana münasibətdə qərəzli mövqeyi dövlətlərarası münasibətlərə təsirsiz ötüşmür

ABŞ-nin Azərbaycana qarşı qərəzli, ədalətsiz siyasətinin məqsədi bəllidir. Ümumiyyətlə, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda təsir imkanları azalan bəzi Qərb dövlətləri, ABŞ və müəyyən siyasi dairələr bu regionda yenidən fəallaşmaq niyyətindədirlər. Yeni reallıqların yaranması fonunda bunun mümkün olmadığını gördükdə isə istənilən yola əl atmağa cəhd edirlər.



Əvvəlcə müəyyən siyasətçilərin çıxışlarında Azərbaycanofobiya özünü göstərirdisə, son dövrlər rəsmi şəxslərin davranışında da bu hal açıq-aydın sezilir. Onlar Azərbaycanı əsassız ittiham etməyə, günahlandırmağa, hədələməyə başlayıblar. Bunun da bir xeyri olmadığı aydın olanda isə sifarişli yazılar dərc etdirməyə üz tuturlar.

Azərbaycan hər zaman dövlətlərin müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşıb və özünə münasibətdə onlardan da bunu tələb edib. Bu baxımdan ölkəmiz həm regionda, həm də dünyada sülhün, sabitliyin, birliyin tərəfdarı və həmin istiqamətdə bir çox layihənin də təşəbbüskarıdır. Amma unutmaq olmaz ki, ölkəmizə qarşı illərlə edilən haqsızlıqlara, ədalətsizliyə Azərbaycan öz gücü hesabına son qoyub, suverenliyini, ərazi bütövlüyünü tam təmin edib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə mövzu ilə əlaqədar qəzetimizə açıqlamasında bildirib ki, ABŞ-Azərbaycan münasibətləri həmişə yaxşı olub: "ABŞ Azərbaycanı öz milli maraqlarını beynəlxalq hüquq normalarına uyğun olaraq qoruya bilən, inkişaf edən, milli tarixinə Şərq dəyərlərini qoruyaraq həm də Avropa dəyərlərini çox uğurla tətbiq edə bilən, beynəlxalq aləmdə sülhün, əmin-amanlığın təmin edilməsi üçün çalışan ölkələrdən biri kimi qiymətləndirib. Azərbaycan Amerika ilə bir çox regional və beynəlxalq layihələrdə birlikdə iştirak edib. Qarşılıqlı anlaşma çox yüksək səviyyədə olub. Çox təəssüf ki, son vaxtlar ABŞ-nin bəzi rəsmi şəxsləri Azərbaycana qarşı ədalətsiz, həqiqətə uyğun olmayan çağırışlar edərək münasibətləri korlamağa cəhd edirlər. İşğalçı Ermənistanı dəstəkləyən bir qətnamə qəbul edildi. Əlbəttə, bunlar iki ölkə arasındakı münasibətlərə təsir etməyə bilməzdi. Azərbaycan öz suveren hüquqlarını, dövlət qürurunu qoruyaraq bu məsələ ilə bağlı çox qətiyyətli bəyanat verdi və ABŞ rəsmilərinin ölkəmizə səfərlərinin heç də arzuolunan olmadığını bəyan etdi. Əlbəttə ki, bu, nə ABŞ-nin, nə Azərbaycanın dünya birliyində qazandıqları nüfuza uyğun gəlirdi".

ABŞ Dövlət katibi Entoni Blinkenin bir neçə gün əvvəl Prezident İlham Əliyevə zəng edərək münasibətləri normallaşdırmaq, danışıqlar aparmaq üçün köməkçisini Azərbaycana göndərmək istədiyini və ABŞ-Azərbaycan münasibətlərini əvvəlki dinamik inkişaf səviyyəsinə qaldırmaq istəyini ortaya qoyduğunu xatırladan A.Mirzəzadə qeyd edib ki, Azərbaycan buna etiraz etmir, çünki ölkəmiz bu gün onun suverenliyinə, dövlət müstəqilliyinə hörmətlə yanaşan istənilən dövlətlə normal münasibətdə olmaqda maraqlıdır: "Dünya siyasətində çox ciddi rolu olan ABŞ ilə əməkdaşlıq da təkcə regionun deyil, həmçinin dünyanın bir sıra məsələlərinin həllinə öz töhfəsini verə bilər".

Deputat hesab edir ki, Ceyms O'Braynın gözlənilən səfərindən sonra iki ölkə arasındakı anlaşılmazlıq, eyni zamanda münasibətlərimizə zərər vuran bütün məsələlər kənara qoyularaq əməkdaşlığımız davam edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 dekabr, № 266.- S.8.